# Yeniyetmələrdə yaradıcı təfəkkürün inkişafı

**Əminə Baba qızı Qədimova**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
**E-mail:** aminaqadimova@admil.edu.az

**Rəyçilər:** p.ü.e.d., prof. L.N. Qasımova,
psixol.ü.f.d, dos.U.M. Qəzvini

**Açar sözlər:** yaradıcı təfəkkür, yaradıcı qabiliyyət inkişaf, düşüncə, idrak, fəaliyyət
**Ключевые слова:** творческое мышление, творческие способности, развитие, мышление, познание, деятельность
**Key word:** creative thinking, creative ability, development, thinking, cognition, activity

Cəmiyyətin məktəbin qarşısında qoyduğu yeni vəzifələr məktəbliləri bilik, bacarıq və vərdişlər sistemi ilə silahlandırmaqla yanaşı, onlarda yaradıcılıq fəaliyyətini inkişaf etdirir. Bu ümdə vəzifəni təhsil prosesində yeni pedaqoji təfəkkürün inkişaf etdirilməsi və tətbiq ilə yerinə yetirmək mümkündür.

Son illər klassik təhsildən müasir təhsilə keçilməsi təhsil sistemindəki qlobal problemləri üzə çıxardı. Aydın görünür ki, təhsilin uğurlu, ilk növbədə, oxuyanın özünün fəallığından asılıdır. Təəccüblü deyil ki, indi təhsil alanın şəxsiyyətini inkişaf etdirməyə, eləcədə onun özünü reallaşdırmasına və aktuallaşmasına böyük diqqət yetirilir.

İnsan təfəkkürünün ən vacib növlərindən biri yaradıcı təfəkkürdür. Yaradıcı təfəkkür-idrak fəaliyyəti prosesində subyektiv olaraq yeni məhsul, yeni cəhətlər yaradır. Həmin yeni fikri-məhsul və ya cəhətlər motivasiya, mənalandırma, yeni məqsədlər sayəsində özünü daha qabarıq surətdə büruzə verir. Yəni burada hazır bilik və bacarıq tətbiqi ilə kifayətlənmir. Cisim və hadisələrdə yeni cəhətlər aşkar edilir. Cismə, hadisəyə yeni baxış və mənalandırma yaradıcı təfəkkür üçün daha xarakterikdir. Yaradıcı təfəkkür bütün fəaliyyət sahələrində özünü göstərə bilər. Belə ki, istənilən fəaliyyət sahəsində adam öz işinə məsuliyyətlə və yaradıcı şəkildə yanaşsa, o, yaradıcı təfəkkürünü inkişaf etdirə bilər.

Təfəkkürün inkişafı bir sıra şərtlərlə bağlıdır, yəni uşağın fiziki inkişafından, həyat təcrübəsinin zənginləşməsindən, əməli fəaliyyətə qoşulmasından, nitqə yiyələnməsindən çox asılıdır. Uşaq təfəkkürünün inkişafı üçün elə oyun faydalı hesab edilə bilər ki, bu zaman uşağın qarşısına fiziki məsələlər çıxsın, həmin məsələləri həll etmək üzərində düşünsün, müstəqil surətdə yollar tapsın, müəyyən əqli əməliyyat nəticəsində qarşıdakı məqsədə çatsın. Bunlar təfəkkürün inkişafına müsbət təsir göstərir.

Ağıl beyinin məhsulu olan təfəkkürə əsaslanır. Əqli tərbiyə təfəkkür əməliyyatlarını təcəssüm etdirir. Təfəkkür cisim və hadisələrin mahiyyətinin, onlar arasında əlaqə və asılılıqların insan şüurunda ümumiləşmiş inikasından ibarət olan idrak prosesdir. Təfəkkür bütün insanlara məxsus mürəkkəb psixi prosesdir. Lakin onun məzmunu və inkişaf dərəcəsi hamıda eyni səviyyədə deyildir. Çünki hər bir fərdin təfəkkürün onun şəxsi həyat yolu, aldığı təlim və tərbiyə, eləcə də "təfəkkür orqanının yetkinliyi" ciddi surətdə təsir edir. Həmin amillərin təsirilə insanların təfəkküründə bir sıra fərdi xüsusiyyətlər meydana çıxır.

Yeniyetməlik şagird şəxsiyyətinin formalaşmasında xüsusi əhəmiyyətə malik olan yaş dövrlərindən biridir. Bu dövrü xarakterizə edərkən fizioloqlar və psixoloqlar, pedaqoqlar və

sosioloqlar onu adətən keçid dövrü adlandırırlar. Qeyd etmək lazımdır ki, yeniyetməlik dövrünün xüsusiyyətlərini, onun müxtəlif çətinliklərini və ziddiyyətlərini düzgün başa düşmək üçün həmin terminin özünəməxsus evristik mənası vardır.

Antropoloqlar yeniyetməlik yaşını uşağın cəmiyyətdə müəyyən mövqe tutmağa doğru getdiyi yol, bir növ cəmiyyətə daxil olma dövrü hesab edirlər. Bu ideyanı xüsusilə inkişaf etdirən Kurt Levin (ABŞ) göstərir ki, cəmiyyətə nüfuz edən yeniyetmədə uşaqlıq dövrünə məxsus olmayan yeni üstünlüklər əmələ gəlir. Lakin bu üstünlüklər uşaqlıqla yaşlılar arasında müəyyən bir sədd çəkdiyindən və yeniyetmə uşaq qrupu ilə yaşlı qrupu arasında qaldığından onun inkişafında hər cür ziddiyyət və "böhran" baş verir. D.Koulmen bu ideyanə bir qədər də inkişaf etdirərək göstərir ki, yaşlılar cəmiyyətində yeniyetmələrin də özünəməxsus cəmiyyəti mövcud olur.

Psixoloq L.S.Vıqotski probleminə tamam başqa cür və orijinalcasına yanaşıb göstərir ki, yaş böhranlarını öyrənərkən iki cəhətə daha çox fikir vermək lazımdır. Əvvəla, şüurda baş verən əsas dəyişiklikləri fərqləndirmək, ikincisi isə, hər bir yaşda uşaqla mühit arasındakı təkrarolunmaz münasibətlər sistemini təmsil edən inkişafın sosial şəraitini müəyyənləşdirmək lazımdır.

Yeniyetməlik dövrünün "böhranları" ictimai həyatın onlara verdiyi konkret sosioloji tələbatı ödəyərkən, yəni inkişaf edən yeniyetmənin böyüklər aləmində müəyyən mövqe tutmaq istədiyi zaman qazanılan xüsusiyyətlərlə, müstəqilliyə artan tələbatla bu müstəqilliyi həyata keçirmək imkanları baş verir.

Yeniyetməliyi keçid dövrü kimi xarakterizə edərkən, onun kiçik məktəbli yaş dövrü ilə erkən gənclik dövrü arasında keçid təşkil etdiyini nəzərdə tuturlar. Yeniyetməlik dövründə özünü göstərən çətinliklər də, ziddiyyətlər də, birinci növbədə məhz bu cəhətlə bağlıdır.

Yeniyetməlik dövrü üçün ümumiləşdirmə bacarığı, müstəqil düşüncə, hadisələrə tənqidi münasibət nəzərə çarpacaq dərəcədə səciyyəvidir.

Yeniyetməlik yaşında qoyulan əsas məqsədlərdən biri məktəblinin məntiqi və yaradıcı təfəkkür elementlərini, formalaşdırmaq, istedadlı şagirdlərin üzə çıxarılmasını və inkişafını təmin etməkdir. Təlim prosesində şagirdlərin yaradıcı təfəkkürünün fəallaşması və inkişafı üçün şəraitin yaradılması bu məqsədin həyata keçirilməsinə xidmət edir. Psixoloqların fikrincə, uşaqlarda yaradıcı başlanğıc mümkün qədər erkən inkişaf etdirilməyə başlanmalıdır. Buna görə məktəblilərdə onların yaş və fərdi xüsusiyyətləri nəzərə alınmaqla yaradıcı təfəkkürün inkişafı üçün məqsədyönlü, metodik cəhətdən düzgün təşkil olunmuş işin aparılması zəruridir.

Divergent təfəkkür yaradıcı təfəkkürdür, özünün anatomiyasına görə təfəkkürlə təxəyyülün sintezinə söykənir. Hansı formada olursa-olsun, inkişaf etmiş təfəkkürün mayası təxəyyüllə, inkişaf etmiş təxəyyülün mayası isə təfəkkürlə yoğrulur. Yaradıcılıq psixologiyasının işığında işığında bunu önəmli qanunauyğun hadisə kimi təhlil etmək olar.

Akad. Azad Mirzəcanzadənin fikrincə, "Texniki-humanitar elmlər lisey"də şagirdlərə biliklər öyrətməkdən daha çox bu biliklərin toplanması prosesini aydınlaşdırmaq lazımdır. Bu cəhət onun təhsil konsepsiyası əsasında işləyib hazırladığı və yeni metodla tədris etdiyi qeyri-adi - "riyazi-fiziki-kimyəvi-tənqidi təfəkkür" kursun leymativini təşkil edir. Onun tədrisi prosesində şagirdlərə təkcə bilik aşılanmır, onlarda ilk növbədə, nəzəri-riyazi, fiziki, kimyəvi təfəkkür və insan ağlının qiymətli keyfiyyəti – tənqidi təfəkkür formalaşır.

Yaradıcılığın başlıca əlaməti onun məhsulunda yeniliyin olmasıdır. Yaradıcılıq yeni baxış, yeni yanaşma, yeni həll deməkdir. O, qavrama, düşüncə və davranış stereotiplərindən kənara çıxa bilməyi tələb edir. Yenilik deyəndə yeni fikir, ideya, hərəkət, təkmilləşdirilmiş və ya yeni yaradılmış obyekt və s. başa düşülür. Bu, problemin həllində qeyri-standart yanaşmalarda, ye-

ni metodların və vasitələrin işlənilməsində müxtəlif həlli metodlarını görmək və onların içərisindən daha səmərəlisini seçə bilmək bacarığı və s. kimi təzahür edir.

Bir cəhəti də nəzərə almaq lazımdır ki, yaradıcılıq ayrıca bir insanın əmək və səyinin nəticəsi olsa da, həmişə ictimai xarakter daşıyır. Belə ki, alimi, ixtiraçını, rejissorun, rəssamın və s. məşğul edən məsələlər, suallar cəmiyyətin ehtiyac və tələbatlarından irəli gəlir. Cəmiyyətin inkişafı bu və ya digər məsələnin yaradıcı həlli o zaman mümkün olur ki, onun üçün şərait yaradılmış olsun.

Yeniyetmələrin təlim fəaliyyətində yaradıcılıq prosesini necə stimullaşdırmaq olar? Bu, psixoloq və pedaqoqların araşdırmalarında, metodist və müəllimlərin praktik fəaliyyətində həllinə cavab axtarılan çox mühüm sualdır. Bu istiqamətdə hələ 1953-cü ildə amerikalı dəniz zabiti A.Osborn tərəfindən ideyaların toplanması və problemin həlli vasitəsi olaraq "Beyin həmləsi" adlı metod irəli sürülmüşdür. Sonralar bu metodun ümumi təhsildə tətbiq olunan versiyası işlənib hazırlanmışdır. Ölkəmizdə bu sahədə Z.Veysovanın işləri xüsusilə qeyd olunmalıdır.

Bu metodda tapşırıq qrup üzvləri arasında iki mərhələdə müzakirə olunur. Birinci mərhələdə qrup üzvləri problemin həlli üçün variantlar təklif edir. Bunlar müxtəlif xarakterdə (fantastik, absurd, zarafatyana, ağlabatan və s.) ola bilər. Əsas tələb odur ki, bütün ideyalar rəğbətlə qarşılanmalı heç bir tənqid və qiymətləndirmə (sözlə, mimika və jestlərlə) olmamalıdır. İkinci mərhələdə toplanmış ideyalar birlikdə təhlil edilir, problemin həlli üçün daha səmərəli variant seçilir. Burada mühüm cəhət olar ki, ideyaların təhlili prosesində variantlar kollektiv şəkildə təhlil edilir və təkmilləşdirilir.

Bu metodu müəllim yeni dərsə hazırlaşarkən əvvəlcədən planlaşdıraraq tətbiq edə bildiyi kimi, ekspromt olaraq dərsdə və dərsdənkənar situasiyalarda da tətbiq edə bilər.

**Məqalənin aktuallığı.** Yaradıcı təfəkkürə malik olan yeniyetmənin onlara xas keyfiyyətlərin məzmunu ilə onların mənimsədikləri fəaliyyət formalarının tələbləri arasında uyğunluq olduğu hallarda yaradıcı təfəkkür özünü göstərir. İstedad tərəflərinin əsasında dayanan yaradıcı təfəkkürün öyrənilməsi çox faydalıdır. Ona görə ki, yeniyetmələrin yaradıcı təfəkkürün imkanlarını aşkara çıxarmaq səviyyəsini öyrənmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, burada əksini tapmış fikirlər psixologiyada yaradıcı təfəkkürün psixoloji problem kimi öyrənilməsini nəzəri cəhətdən əsaslandırır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə əksini tapmış müddəa və tövsiyələrdən orta və ali məktəb mühitində şagirdlərin, tələbələrin yaradıcılıq təfəkkürünün formalaşmasında bir təhsilləndirici qaynaq olaraq istifadə etməklə onlarda düşüncə səyini xeyli təkmilləşdirmək olar. Eyni zamanda, müəllif tərəfindən hazırlanmış məqalədə əldə olunmuş elmi nəticələrdən təlim prosesində, eləcə də auditoriyadankənar vaxtlarda istifadə oluna bilər. Müəllif elmi nəticələrini ali məktəblərdə, elmi konfranslarda, mühazirə və seminar məşğələlərində tətbiq edilmişdir, tədris vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər. Həmin mühazirələr müəllimlərin fəaliyyətinə düzgün istiqamət verə bilər.

## Ədəbiyyat

1. Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Bakı, 2009.
2. Bədəlova Ə. Təlim-tərbiyə. Bakı, 2015.
3. Kazımov., Həşimov Ə. Pedaqogika. Bakı, 2000.
4. Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 2004.

5. Qədirov Ə. Yaş psixologiyası. Bakı, 2002.
6. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı, 2007.
7. Sadıqov F. Uşaqların bədii yaradıcılıq qabiliyyətinin formalaşdırılması işinin elmi-pedaqoji əsasları. Bakı, 2007.
8. Seyidov S. Yaradıcılıq fenomenologiyası. Bakı, 2013.
9. Veysova Z. Fəal interaktiv təlim. Bakı, 2007.
10. Маклаков А.Г. Общая психология. СПб. Питер., 2014.
11. Рубинштейн С.Л. Основы общей психологии. Сб. Питер., 1999.
12. Ушачев В. Творчество в системе образования. Москва, 1995.

**А.Б. Кадимова**

## Развитие творческое мышления у подростков

## Резюме

В статье рассматриваются проблемы формирования творческого мышления, творческих способностей студентов. Развитие творческого мышления в правильном направлении может привести к большим успехам в будущем. В статье исследуются виды деятельности, служащие развитию творческого мышления у учащихся, автором приводится подробная информация.

**A.B. Gadimova**

## Development of creative thinking in adolescents

## Summary

The article discusses the problems of formation of creative thinking of student’s creative abilities. The development of creative thinking in the right direction can lead to great success in the future. The article examines the activities that serve the development of creative thinking in students, the author provides detailed information.

**Redaksiyaya daxil olub:** 12.10.2021